

# İLHAM ƏLİYEV cüdoçulara ən böyük mənəvi dəstəyi göstərdi

## Yığmamız qızıl medal qazandı

Cüdoçularımız Bakıda təşkil olunan IV İslamiadada zəfər estafetini davam etdirdilər. Bu dəfə idmançılarımız komanda yarışında ən güclü oldular.

Onların qazandıqları uğurla yalnız fəxr etmək lazımdır. Cüdoda ilk iki yarış günündə fərdi mübarizədə ümumilikdə 13 medal (6 qızıl və 7 gümüş) qazanan atletlərimiz komanda döyüşlərində uğurlu nəticəyə imza atdılar.




Şübhəsiz, qələbəni labüd edən ən başlıca amil idmançıların onlara göstərilən yüksək qayğı və etimad müqabilində dövlət və xalq qarşısında məsuliyyətini dərk etməsi, yüksək iradə göstərərək sonadək mübarizə aparmasıdır. Qalib idmançı xalqının sonsuz sevgisini, rəğbətini qazanmaqla yanaşı, onun qürur ünvanına çevrilir. İdmançının daxilində həm də yüksək vətənpərvərlik, milli qürur hissi, yurd sevgisi olmalıdır. Yalnız bu halda o, təmsil etdiyi dövlətin, xalqın idman şərəfini qorumağa - bayrağını ucaldaraq himnini səsləndirməyə nail ola bilir.

*Ardı 2-ci səh.*

BAKU 2017 — 4th Islamic Solidarity Games

Hər dəqiqəsi bir tarix, hər günü bir zəfər

# İLHAM ƏLİYEV cüdoçulara ən böyük mənəvi dəstəyi göstərdi



## Yığmamız qızıl medal qazandı



Əvvəli 1-ci səh.

Dünən cüdo üzrə komanda yarışlarında həm kişi, həm də qadın yığmalar arasında mükafatçılar məlum olub. Heydər Əliyev adına İdman Sarayında kişilərin yarışında ölkəmizin idman şərəfini Orxan Səfərov (60 kq), Rüstəm Orucov (73 kq), Rüfət İsmayılov (81 kq), Məmmədəli Mehdiyev (90 kq) və Uşangi Kokauridən (+100 kq) ibarət komandamız qoruyub. Yığmamız mübarizəyə 1/8 finaldan başlayıb. Yığmamız bu mərhələdə Qırğızıstan komandasını 5:0 hesabı ilə məğlub edərək dörddəbir finala vəsiqə qazanıb. 1/4 finalda Türkiyə millisi ilə görüşdə Rüfət, Məmmədəli və Uşangi rəqiblərinə qalib gəldiklərindən digər cüdoçuların tatamiyə çıxmalarına ehtiyac qalmayıb. Nəticədə asanlıqla qələbə qazanan komandamız yarımfinalda Özbəkistana rəqib olub. Finala gedən yolda 4:1 hesabı ilə qalib gələn cüdoçularımızın heyətində Məmmədəli, Elxan, Nicat və Rüstəm fərqləniblər. Həlledici mərhələdə rəqib Əlcəzair cüdoçuları olub.

Heydər Əliyev adına İdman Sarayında keçirilən final qarşılaşmasını dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və Birinci vitse-prezident, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva da izləyiblər.

Tatamiyə ilk olaraq Nicat Şıxəlizadə çıxıb və qələbə qazanıb. Rüfət İsmayılovun isə rəqibi olmadığından qalib elan edilib. Rüstəm Orucovla Məmmədəli Mehdiyev rəqiblərinə uduzduqlarından hesab bərabərləşib. Bütün ümidlər Uşangi Kokauriyə qalıb. Rəqibini vaxtından əvvəl məğlub edən Kokauri millimizə qızıl medal qazandırıb.

Bürünc medal uğrunda isə iki görüş keçirilib. Özbəkistan Səudiyyə Ərəbistanına 4:1, Türkiyə isə Qazaxıstana 3:2 hesabı ilə qalib gələrək yarışı 3-cü pillədə başa vurub.

Prezident İlham Əliyev medalları qalib komandalara təqdim edib. Çempion cüdoçularımızın şərəfinə Dövlət himni səsləndirilib, dövlət bayrağı qaldırılıb.

Qadınların yarışında isə yığmamız "B" qrupunda ilk oyununu özbəklərə qarşı keçirib. Komandamızın heyətində Nəzakət Əzizova (52 kq), İçhinkotlo Munxtsedev (57 kq), Xanım Hüseynova (63 kq), Gülsədəf Kərimova (70 kq) və İrina Kindzerska (+70 kq) mübarizə aparıblar. Xanım Hüseynova və Gülsədəf Kərimova rəqiblərinə uduzsalar da, digər cüdoçularımızın uğurlu çıxışı 3:2 hesablı qələbəylə nəticələnib. Beləliklə, turnirə cəmi 5 komanda qatıldığından komandamız bir qələbə ilə finala yüksəlib. Həlledici görüşdə rəqibi Türkiyə cüdoçuları olub. 0:5 hesabı ilə uduzan cüdoçularımız İslamiadanı komanda yarışında gümüş medalla başa vurublar. Bürünc medala isə əlcəzairli həmkarlarına 3:2 hesabı ilə qalib gələn Özbəkistan idmançıları layiq görülüblər.









Sonda onu da vurğulayaq ki, Azərbaycan cüdoçularının IV İslam Həmrəyliyi Oyunlarında qazandıqları medalların ölkəmizə gətirdiyi böyük sevinc hissi bizi hələ uzun müddət tərk etməyəcək. Çünki növbəti dəfə doğma vətəndə Dövlət himnimiz səsləndirildi, milli bayrağımız göylərə ucaldı.

Yolun açıq, qələbən bol olsun, Azərbaycan!

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

**Azərbaycan.- 2017.- 16 may.- S. 1-2.**